# İLİN HƏQİQƏTİ – PREZİDENTİN QƏTİYYƏTİ

Bu da 2019-cu il. Hər ötən il yaddaşımızda hansısa bir əlamətdar hadisə ilə qalır. Hətta unutmaq istədiyimiz zamanı belə həmin hadisə təkrar bizə qaytarır. Təhlil, münasibət sarıdan fikir bildirmək üçün düşüncə meydanı açır.

İl boyu Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sosial problemlərin həlli üçün ardıcıl siyasət apardı. Adamların rifah halının yaxşılaşması üçün bir çox davamlı tədbirlər həyata keçirildi. Doğrudur, hələ ki, uşaq pullarının verilməməsi, pensiya yaşının əhalinin istəklərinə, həyat tərzinə zidd olaraq artırılması... kimi problemlər qalır. Ancaq prezidentin ardıcıl olaraq məmurlara təpkisi, xüsusilə, xalqın xidmətçisi olmaq tələbi çox ümidli mühit yaradır. Korrupsiyada adı hallanan məmurların əməllərinin təvtiş edilməsi, cinayət başında ifşa olunanların cəzalandırılması haqqında prezidentin qətiyyətli mövqeyi xalq arasında böyük coşqu ilə qarşılanır. İnsanlar prinsipial mövqeni rəğbətlə qarşıladıqları kimi, prezidentə böyük dəstəklərini də bildirirlər.

Ölkəmizdə beynəlxalq səviyyəli mədəni-kütləvi tədbirlərin təşkili və yüksək səviyyədə keçirilməsində xüsusi rolu olan Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanımın əməli fəaliyyəti də milyonlarla vətəndaşın sevgisilə qarşılanıb.

Son aylarda başlanmış islahatlar da bilavasitə prezidentin təşəbbüsü ilə həyata keçirilir, ən müxtəlif idarəetmə orqanlarına zəkalı, kreativ düşüncəli gənclər irəli çəkilirlər. Yaxın günlərin heç vaxt yaddan çıxmayacaq hadisələrindən biri də parlamentin buraxılması oldu. Doğrudur, parlamentin buraxılması YAP-ın təşəbbüsü kimi baş versə də, bu işdə də prezidentin mövqeyi birmənalı oldu. Axı deputatlar arasında özünü bədnam etmiş, xalq arasında nüfuzdan düşmüş olan simalar da az deyil. Bir növ parlament mənəvi cəhətdən az qala çöküş məqamına çatmaqda idi.

Prezidentin ardıcıl, məntiqi cəhətdən əsaslandırılmış çıxışları ölkədə demokratikləşmə proseslərinin dərinləşməsinə yol açır. Çox güman ki, xalq 2020-ci il fevral ayının 9-da ölkə üçün, Vətən üçün məsuliyyətini bilən adamlara səs vermək imkanı qazanacaq. Bütün hallarda radikal müxalifət də islahatların dərinləşməsini görür, daha sivil qaydada mübarizə imkanlarından istifadə üçün yaradılmış şəraitdən faydalanmağa çalışacaqdır.

Əlbəttə, Azərbaycanın ən böyük problemi - Dağlıq Qarabağ məsələsi bu il də həll oluna bilmədi. Ancaq bu, o demək deyil ki, Qarabağ uğrunda mürarizə arxa plana keçib. Xeyr, məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq arenada Azərbaycanın haqq işi uğrunda mübarizəsinin əsas təmsilçisi olub. Və həmişə birmənalı şəkildə deyir ki, Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu deyil. Azərbaycan ərazisi bölünə bilməz və Azərbaycan heç vaxt razı olmayacaq ki, öz ərazisində ikinci erməni dövləti yaradılsın.

Bu gün - dekabr ayının 24-ü Prezident İlham Əliyevin ad günüdür. Biz Prezidentimizi ad günü münasibətilə təbrik edirik! Dünya Azərbaycanlılarını böyük həmrəylik günü və Yeni il münasibətilə təbrik edir, haqq işimiz uğrunda gələcək mübarizələrdə xalqımıza böyük uğurlar arzulayırıq.

*Əli Rza XƏLƏFLİ*
*24.12.2019*

Kredo 2019.- 25 dekabr.- S.1.